# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin**
2008-c**i il** 07 **oktyabr tarixli** 89 **nömrəli qərarına**
**dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 07 oktyabr tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət vəsaiti hesabına idxal olunan damazlıq heyvanların 50 faiz güzəştlə lizinq yolu ilə heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına satılması Qaydaları»nın 2.7-ci bəndi aşağıdakı redaksiyada təsdiq edilsin:

«2.7. İstehsalçı damazlıq heyvanların lizinq yolu ilə ilkin dəyərini 50 faizədək qabaqcadan, qalan dəyərini isə 3 il müddətinə Cəmiyyətin müvafiq bankdakı xəzinə hesabına hesab-fakturaya əsasən ödəyir və ödənişi təsdiqləyən bütün bank sənədlərini Cəmiyyətə təqdim edir».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

01 dekabr 2010-cu il

№ 116